WORLD URBAN FORUM
THIRTEENTH SESSION
BAKU, AZERBAIJAN | 17-22 MAY 2026

MINISTRY OF DIGITAL DEVELOPMENT
AND TRANSPORT
OF THE REPUBLIC OF AZERBAIJAN

# Simsiz Cihazların Qeydiyyatı və İstifadəsinə dair Texniki Təlimat



# Mündəricat

**Simsiz cihazların qeydiyyatı** 3

**Simsiz cihazların yoxlanılması və etiketlənməsi** 5

**Texniki yoxlama və etiketlənmə proseduru** 5

**Etiketlə istifadə oluna bilən cihazlar** 5

**Etiketsiz istifadə oluna bilən cihazlar** 6

**İstifadəsi qadağan olunmuş simsiz cihazlar** 6

**Azərbaycan Respublikasının tezlik zolaqlarının ayrılması cədvəlinə uyğun olaraq radio xidmətlər üçün təyin olunmuş tezlik zolaqları** 7

**Simsiz cihazların istifadə qaydaları** 8

**Radiomaneə hallarına nəzarət** 8

**WUF13 Radiospektrin idarə edilməsi portalı** 9

**İstifadəçi hesabı** 9

Qeydiyyat 9

Portala giriş/Portaldan çıxış 11

Şifrənin bərpası 12

**Tənzimləmələr** 13

**Yeni radiospektr müraciəti** 14

Simsiz cihazlar üçün radiospektr müraciət forması 15

Simsiz cihazlar üçün müraciətlər 17

# Simsiz cihazların qeydiyyatı

17—22 may 2026-cı il tarixlərində Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun Bakı şəhərində keçiriləcək On Üçüncü sessiyası (WUF13) çərçivəsində radiospektr resurslarının səmərəli və təhlükəsiz idarə olunması məqsədilə tədbir məkanında- Bakı Olimpiya Stadionunda simsiz cihazların istifadəsi üzrə xüsusi qaydalar tətbiq olunur.

Akkreditə olunmuş iştirakçılar tədbir məkanının daxilində və ya xaricində istifadə edəcəkləri simsiz cihazları **Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi** yanında **İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi (İKTA)** tərəfindən hazırlanmış **WUF13 Radiospektrin idarə edilməsi portalı** vasitəsilə qeydiyyatdan keçirməli və müvəqqəti radiotezlik ayrılması üçün müraciət təqdim etməlidirlər. Portala bu link vasitəsilə daxil olmaq mümkündür:
**https://wuf13-e-permission.icta.az/login**

İştirakçı ilk olaraq portalda qeydiyyatdan keçməli və şəxsi hesabını yaratmalıdır. Hesab **WUF13 Azərbaycan Əməliyyat Şirkəti** tərəfindən təsdiqləndikdən sonra istifadəçiyə elektron poçt vasitəsilə bildiriş göndəriləcək. Bundan sonra istifadəçi tədbir çərçivəsində istifadə etməyi planlaşdırdığı cihaz haqqında zəruri məlumatları təqdim etməli və həmin cihaz üçün tələb olunan radiotezliyi qeyd etməlidir. Müraciət göndərilməzdən əvvəl daxil edilən məlumatların düzgünlüyünün diqqətlə yoxlanılması tövsiyə olunur. Müraciət nəzərdən keçirildikdən sonra onun nəticəsi **72 saat** ərzində istifadəçinin qeydiyyat zamanı təqdim etdiyi elektron poçt ünvanına göndəriləcək.

Müraciət təsdiqləndiyi halda istifadəçiyə elektron poçt vasitəsilə bildiriş göndəriləcək və portalda cihazla bağlı məlumatları ehtiva edən QR kod aktivləşəcək. İstifadəçi QR kodu yükləməli və tədbir məkanına gəldiyi zaman onu elektron cihazı vasitəsilə təqdim etməlidir. Bu QR kod məkana maneəsiz girişi təmin edəcək və etiketlənmə prosesi üçün istifadə olunacaq.

**Qeyd:** Azərbaycan Respublikasına daxil olan forum iştirakçıları ölkəyə gətirdikləri simsiz cihazların yoxlanılması üçün QR kodu sərhəd-buraxılış məntəqələrində gömrük məmurlarına təqdim etməlidirlər. İdxal olunan cihazlara dair məlumatlar- cihazın növü, modeli və digər texniki göstəricilər QR kodda əks olunan məlumatlarla tam uyğunluq təşkil etməlidir. Qeydiyyatdan keçirilməmiş və ya QR kodda göstərilən məlumatlarla uyğunluq təşkil etməyən cihazların ölkə ərazisinə keçirilməsinə gömrük məmurları tərəfindən məhdudiyyətlər tətbiq oluna bilər.

Tələb olunan radiotezliyin ayrılması mümkün olmadığı halda, istifadəçiyə **72 saat** ərzində müraciətinin təsdiq edilmədiyi barədə elektron poçt vasitəsilə bildiriş göndəriləcək. Həmin bildirişdə imtina səbəbi qeyd olunacaq və mümkün olduqda **Dövlət Radiotezliklər İdarəsi (DRİ)** tərəfindən alternativ tezlik təklif ediləcək.

İstifadəçi təklif olunan tezliyi qəbul etdiyi halda, həmin tezlik üzrə **48 saat** ərzində yeni müraciət təqdim etməlidir. Əgər təklif olunan tezlik bu müddət ərzində qəbul edilməzsə, alternativ tezlik mövcud olmaya bilər. Bu halda istifadəçi yenidən müraciət təqdim etməlidir.

# Simsiz cihazların qeydiyyatı proseduru

Simsiz cihazların qeydiyyatı və radiotezliklərin ayrılması üzrə müraciətlər **10 may 2026-cı il** tarixinədək təqdim edilməlidir. Bu tarixdən sonra daxil olan müraciətlərin icrasında gecikmələr yarana bilər. Buna görə də, radiotezlik tələblərinin vaxtında təmin olunması üçün müraciətlərin mümkün qədər erkən təqdim edilməsi tövsiyə olunur.



# Simsiz cihazların yoxlanılması və etiketlənməsi

## Texniki yoxlama və etiketlənmə proseduru

Portal vasitəsilə qeydiyyatdan keçirilmiş simsiz cihazlar tədbir məkanında istifadə edilməzdən əvvəl texniki yoxlamadan keçirilməli və etiketlənməlidir. Bunun üçün istifadəçilər cihazlarını portal üzərindən təyin olunmuş tezlik və müvafiq texniki parametrlərə uyğun olaraq konfiqurasiya etməli, **Radiospektrin test və etiketlənmə masasına** yaxınlaşmalı və qeydiyyatı təsdiq edən QR kodu təqdim etməlidirlər.

**Qeyd:** Radiospektrin test və etiketlənmə masası **14 may 2026-cı il** tarixindən etibarən xidmət göstərəcək.

Masa tədbir məkanının **A zonasında** - **Qeydiyyat ərazisində** yerləşir.

Masaya yaxınlaşmazdan əvvəl bütün simsiz cihazlar tam şarj edilməlidir. Əlavə olaraq, tam şarj edilmiş batareyaların gətirilməsi tövsiyə olunur.

Portalda qeydiyyatı olmayan və ya texniki yoxlamadan keçirilməyən heç bir simsiz cihaz etiketlənməyəcək və tədbir məkanına buraxılmayacaq.

Tədbir məkanına giriş zamanı təhlükəsizlik yoxlamaları həyata keçiriləcək və yalnız müvafiq qaydada etiketlənmiş simsiz cihazların məkanda istifadəsinə icazə veriləcək.

Etiketin çıxarılması, dəyişdirilməsi və ya digər cihazlarda istifadəsi qadağandır və bu hallar cihaz üzrə verilmiş icazənin ləğv edilməsi ilə nəticələnəcək.

Etiketin çıxarılması, zədələnməsi və ya itirilməsi hallarında **Radiospektr komandası** və ya **Radiospektrin test və etiketlənmə masası** ilə əlaqə saxlanılması xahiş olunur.

## Etiketlə istifadə oluna bilən cihazlar

Aşağıda qeyd olunan cihazlar yalnız portalda qeydiyyatdan keçirildikdən və etiketləndikdən sonra tədbir məkanında istifadə edilə bilər.



WORLD URBAN FORUM THIRTEENTH SESSION

## Etiketsiz istifadə oluna bilən cihazlar

Aşağıda qeyd olunan cihazların portalda qeydiyyatdan keçirilməsi və etiketlənməsi tələb olunmur. Məkan daxilində maneəsiz Wi-Fi şəbəkə mühitinin təmin edilməsi məqsədilə etiketsiz istifadə oluna bilən cihazlar yalnız WUF13 tərəfindən təmin olunan Wi-Fi şəbəkəsinə qoşularaq istifadə edilə bilər.


Noutbuk


Tablet


Proyektor


VR cihaz


Smartfon və mobil telefon


Printer və skaner


Fotoaparat


Smart səs sistemi


Qulaqlıq


Yaddaş kartı



Portativ canlı yayım cihazı

## İstifadəsi qadağan olunmuş simsiz cihazlar

WUF13 tədbirinə gətirilməsi və istifadə edilməsi qadağan olunmuş simsiz cihazların siyahısı:


Dron


Siqnal qarışdırıcı


Siqnal təkrarlayıcı və gücləndirici


Modem/ Ruter


Mi-Fi


Radiomonitorinq cihazı


Qeydiyyatsız/Etiketsiz cihaz

**Qeyd:** Azərbaycan Respublikasının tezlik zolaqlarının ayrılması cədvəlində (Milli Tezlik Cədvəli) birgə istifadə təyinatlı müvafiq radioxidmətlər üçün müəyyən edilməyən və Cədvəl 1-də göstərilən tezlik zolaqları sırasında simsiz avadanlıqlar üçün nəzərdə tutulmayan, həmçinin istifadəsi məhdudlaşdırılmış tezlik zolaqlarında işləyən, zərərli radiomaneə yaradan və istifadə şərtlərinə uyğun olmayan radioelektron vasitələr.

**Qeyd: Əlavə olaraq, tədbir məkanında hotspot (internetə simsiz bağlantı) və tetering (şəxsi kompüter və ya mobil telefon üzərindən bağlantı) istifadəsi qadağandır.**

Tədbir məkanında yuxarıda qeyd olunan simsiz cihazlarından hər hansı birinin istifadəsi aşkar edilərsə, onlar müvəqqəti olaraq müsadirə ediləcək. Müsadirə edilmiş cihazların sahibləri onların geri qaytarılması üçün **Media mərkəzində** yerləşən **Qarşılama masasına** müraciət edə bilərlər.

# Azərbaycan Respublikasının tezlik zolaqlarının ayrılması cədvəlinə uyğun olaraq radio xidmətlər üçün təyin olunmuş tezlik zolaqları

WUF13 tədbiri çərçivəsində istifadə olunacaq bütün simsiz cihazlar və radiotezliklər Azərbaycan Respublikasının tezlik zolaqlarının ayrılması cədvəlinə (Milli Tezlik Cədvəli) uyğun olmalıdır. Cədvəl 1-də WUF13 tədbirinin keçiriləcəyi məkanda istifadə edilməsi məqsədilə nəzərdə tutulmuş müxtəlif radio-kommunikasiya xidmətləri (və ya texnologiyaları) üçün təyin edilmiş radiotezliklər haqqında ümumi məlumat təqdim olunur.

**Cədvəl 1**

| № | Tezlik diapazonu (MHs) | Tətbiqlər | Qeyd |
|---|---|---|---|
| 1 | 29.7-47.0 MHs | Audio PMSE | |
| 2 | 87.5-108 MHs | Audio PMSE | Radio mikrofonlar |
| 3 | 150-170 MHs | PMR | |
| 4 | 174-230 MHs | Audio PMSE | Radio mikrofonlar |
| 5 | 433.05-434.79 MHs | SRD LPD | |
| 6 | 446.000-446.200 MHs | PMR446 | |
| 7 | 440-450 MHs | PMR | |
| 8 | 450-470 MHs | PMR | |
| 9 | 470-694 MHs | Audio PMSE | Radio mikrofonlar |
| 10 | 694-790 MHs | Audio PMSE | Radio mikrofonlar |
| 11 | 862-870 MHs | SRD | |
| 12 | 1880-1900 MHs | DECT | |
| 13 | 2400-2483.5 MHs | Wi-Fi | |
| 14 | 5150-5350 MHs | Wi-Fi | |
| 15 | 5470-5825 MHs | Wi-Fi | |
| 16 | 2010-2025 MHs | Video PMSE | |
| 17 | 2025-2110 MHs | Video PMSE | |
| 18 | 2200-2300 MHs | Video PMSE | |
| 19 | 2300-2400 MHs | Video PMSE | |
| 20 | 7.0-8.5 GHs | Video PMSE | |
| 21 | 10.0-10.68 GHs | Video PMSE | |
| 22 | 21.2-24.5 GHs | Video PMSE | |
| 23 | 47.2-50.2 GHs | Video PMSE | |
| 24 | 1.518-1.559 GHs | MSS terminals | |
| 25 | 1.6265-1.6605 GHs | MSS terminals | |
| 26 | 1.668-1.675 GHs | MSS terminals | |

# Simsiz cihazların istifadə qaydaları

DRİ, lazım gəldikdə, hər hansı bir cihaz üçün təyin olunmuş tezliyi dəyişdirmək hüququna malikdir. Bu halda Radiospektr komandası istifadəçiyə məlumat verəcək və cihaz üçün yeni tezlik təyin edəcək. Bu dəyişiklik cihazın əməliyyat vəziyyətinə təsir göstərməyəcək.

Əgər cihaz qeydiyyatdan keçirilməyibsə, etiketlənməyibsə və ya portalda təyin olunmuş tezlikdən fərqli tezlikdə işləyirsə, istifadəçidən cihazı dərhal söndürməsi tələb olunacaq. İstifadəçi **Radiospektrin test və etiketlənmə masasına** yönləndiriləcək və cihazdan istifadəyə portalda qeydiyyat aparıldıqdan, müvafiq tezlik ayrıldıqdan və cihaz etiketləndikdən sonra icazə veriləcək.

DRİ tərəfindən ayrılmış tezlikdən fərqli tezlikdə istifadə edilən və zərərli radiomaneəyə səbəb olan hər hansı bir simsiz cihaz aşkar edildiyi halda, istifadəçidən dərhal həmin cihazı söndürməsi tələb olunacaq. Daha sonra cihazın yalnız ona ayrılmış tezliyə köklənərək istifadə edilməsinə dair təlimat veriləcək.

# Radiomaneə hallarına nəzarət

Qeydiyyatdan keçirilmiş və etiketlənmiş simsiz cihazların istifadəçiləri zərərli radiomaneə halları müşahidə etdikdə **Radiospektr komandasına** bu haqda məlumat verməlidirlər. Komanda müraciəti araşdıracaq və radiomaneənin mənbəyini tez bir zamanda müəyyən etmək və aradan qaldırmaq üçün lazımi tədbirlər görəcək.

Radiomaneənin araşdırılması, aşkar edilməsi və qarşısının alınması Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi çərçivəsində aparılır.

# WUF13 Radiospektrin idarə edilməsi portalı

Simsiz cihazların qeydiyyatı və hər bir cihaz üzrə radiotezlik müraciətləri WUF13 Radiospektrin idarə edilməsi portalı vasitəsilə təqdim edilməlidir.

Portalda qeydiyyatdan keçməzdən əvvəl iştirakçıların WUF13 tədbiri üçün BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) GEMS portalı üzərindən akkreditasiyadan keçməsi tələb olunur.

## İstifadəçi hesabı

### Qeydiyyat

Hesab yaratmaq üçün WUF13 **Radiospektrin idarə edilməsi portalına** daxil olun və **"Qeydiyyat"** düyməsini sıxın.




Tələb olunan xanalara müvafiq məlumatları daxil edin və **"Qeydiyyatdan keçin"** düyməsini sıxın.




**Qeyd:** Qeydiyyat zamanı seçdiyiniz dil elektron poçt bildirişləri üçün standart dil kimi təyin olunacaq.
Zəhmət olmasa, aktiv elektron poçt ünvanınızı və mobil nömrənizi qeyd edin.
Elektron poçt ünvanı şifrənin bərpası və bildirişlər üçün istifadə olunacaq.
Zəruri hallarda qeyd etdiyiniz mobil nömrə vasitəsilə sizinlə əlaqə saxlanıla bilər.



MINISTRY OF DIGITAL DEVELOPMENT AND TRANSPORT OF THE REPUBLIC OF AZERBAIJAN

**Qeydiyyat**

Hörmətli Mehdi Hüseynli,

Qeydiyyatdan keçdiyiniz və Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına maraq göstərdiyiniz üçün təşəkkür edirik.

Hesab yaradılması ilə bağlı müraciətiniz qəbul edilib və hazırda məlumatlarınızın doğruluğu tərəfimizdən yoxlanılır. Doğrulama prosesi başa çatdıqdan sonra sizə e-poçt vasitəsilə bildiriş göndəriləcək.

Sualınız yaranarsa və ya əlavə dəstəyə ehtiyacınız olarsa, spectrum@wuf13.az e-poçt ünvanına müraciət etməyinizi xahiş edirik.

Hörmətlə,
İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi (İKTA)

Qeydiyyat tamamlandıqdan sonra hesabınızın doğrulama mərhələsində olması haqqında bildiriş göndəriləcək.

**Qeyd:** Əgər bildiriş elektron poçt ünvanınızda görünmürsə, **"junk/spam"** qovluğunu yoxlayın.

Proses başa çatdıqdan sonra nəticə barədə elektron poçt vasitəsilə məlumat veriləcək.

Hesabınız doğrulama mərhələsindən keçmədiyi halda, qeyd edilən imtina səbəbini nəzərdən keçirin və təlimata uyğun olaraq lazımi düzəlişləri edin.



MINISTRY OF DIGITAL DEVELOPMENT AND TRANSPORT OF THE REPUBLIC OF AZERBAIJAN

**Hesabınız təsdiq edilmədi**

Hörmətli Mehdi Hüseynli,

Qeydiyyatdan keçdiyiniz üçün təşəkkür edirik!

Təəssüflə bildiririk ki, şəxsi hesabınız doğrulama prosesindən keçmədi.

**İmtina səbəbi:**

Zəhmət olmasa, vəzifənizi düzgün qeyd edin.

Sualınız yaranarsa və ya əlavə dəstəyə ehtiyacınız olarsa, spectrum@wuf13.az e-poçt ünvanına müraciət etməyinizi xahiş edirik.

Hörmətlə,
İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi (İKTA)



MINISTRY OF DIGITAL DEVELOPMENT AND TRANSPORT OF THE REPUBLIC OF AZERBAIJAN

**Hesabınız təsdiq edildi**

Hörmətli Mehdi Hüseynli,

Qeydiyyatdan keçdiyiniz üçün təşəkkür edirik!

Məmnuniyyətlə bildiririk ki, hesabınız doğrulama prosesindən uğurla keçdi. Giriş səhifəsinə keçid edərək şəxsi hesabınıza daxil ola bilərsiniz.

Giriş

Zəhmət olmasa, portalın istifadəsi və radiospektr müraciətlərinin təqdim edilməsi ilə bağlı ətraflı məlumat üçün **Texniki təlimata** istinad edin.

Sualınız yaranarsa və ya əlavə dəstəyə ehtiyacınız olarsa, spectrum@wuf13.az e-poçt ünvanına müraciət etməyinizi xahiş edirik.

Hörmətlə,
İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi (İKTA)

## Portala giriş/Portaldan çıxış

**WUF13 Radiospektrin idarə edilməsi portalına** keçid edərək istifadəçi adı və şifrənizi daxil edin, sonra **"Giriş"** düyməsini sıxın.




Portaldan çıxış üçün:

- Aşağı sol küncdə **"Çıxış"** düyməsini sıxın;
- Yuxarı sağ küncdə **"Profil"** işarəsinə klik edin və açılan menyuda **"Çıxış"** düyməsini sıxın.



## Şifrənin bərpası

Şifrənizi unutduğunuz halda, **“Giriş”** səhifəsindəki **“Şifrənizi unutmusunuz?”** düyməsini sıxın.




Açılan səhifədə elektron poçt ünvanınızı daxil edin və **“OTP kodu göndərin”** düyməsini sıxın.




Elektron poçt ünvanınıza göndərilən OTP kodu daxil edin, **“Təsdiq et”** düyməsini sıxın və şifrənizi bərpa edin.






# Tənzimləmələr

**"Profil"** işarəsinə klik edin və açılan menyuda **"Tənzimləmələr"** düyməsini sıxın.




Şifrənizi yeniləmək üçün **"Şifrəni yenilə"** bölməsinə keçin, cari və yeni şifrələrinizi daxil edin və **"Yenilə"** düyməsini sıxın.

**Qeyd:** Şifrə ən azı 8 simvoldan, eləcə də böyük və kiçik hərflər, rəqəmlər və xüsusi işarələrdən ibarət olmalıdır.

Bildiriş dilini dəyişdirmək üçün **"Bildiriş dili"** bölməsinə keçin, açılan siyahıdan seçim edin və **"Yadda saxla"** düyməsini sıxın.

**Qeyd:** Bildirişlər portal üzərindən göndərilən e-məktublardır. Qeydiyyat zamanı seçdiyiniz dil elektron poçt bildirişləri üçün standart dil olaraq təyin olunur.



# Yeni radiospektr müraciəti

Radiospektr müraciətini yaratmaq üçün:

- **"Əsas səhifə"**-yə keçid edərək **"Simsiz cihazlar üçün yeni müraciət"** düyməsini sıxa bilərsiniz.
- **"Simsiz cihazlar üçün müraciətlər"** səhifəsinə keçid edərək **"Yeni müraciət yarat"** düyməsini sıxa bilərsiniz.




**Simsiz cihazların qeydiyyatı və istifadəsinə dair texniki təlimatı** oxumaq və ya onu yükləmək üçün sol tərəfdə yerləşən **"Texniki təlimat"** düyməsini sıxın.



# Simsiz cihazlar üçün radiospektr müraciət forması

**"Simsiz cihazlar üçün radiospektr müraciət forması"** səhifəsinə keçid etdikdən sonra tələb olunan məlumatları daxil edin.

**Qeyd:** Ətraflı məlumat üçün xanaların yanında yerləşən ⓘ işarəsinə klik edin.
**"Əlavə məlumat"** xanasında zəruri hesab etdiyiniz digər məlumatları təqdim edə bilərsiniz.
Növbəti cihazla bağlı radiospektr müraciəti yaratmaq üçün **"Əlavə et"** düyməsini sıxın.

Müraciət formasının sonunda qeyd olunan məlumatları diqqətlə oxuyun və hər iki təsdiq xanasını seçin.

Təqdim etdiyiniz bütün məlumatların düzgün olduğundan əmin olun və **"Müraciəti göndər"** düyməsini sıxın.




Müraciətin nömrəsini, təqdim olunma tarixi və saatını, statusunu və digər məlumatları görmək üçün **"Simsiz cihazlar üçün müraciətlər"** səhifəsinə keçid edin.

Müraciətiniz nəzərdən keçirildikdən sonra elektron poçt ünvanınıza onun nəticəsi ilə bağlı bildiriş göndəriləcək.




Müraciət təsdiq edildiyi halda, cihaz üçün ayrılmış radiotezlik bildirişdə qeyd olunacaq və **“Simsiz cihazlar üçün müraciətlər”** səhifəsində cihazla bağlı məlumatları ehtiva edən QR kod aktivləşəcək.

Tədbir məkanına gəldiyiniz zaman cihazınızın texniki yoxlamadan keçirilməsi və etiketlənməsi üçün **Radiospektrin test və etiketlənmə masasına** yaxınlaşmağınız xahiş olunur.




Müraciət təsdiq edilmədiyi halda, qeyd olunan imtina səbəbini nəzərdən keçirin və təlimata uyğun olaraq növbəti addımları atın.

# Simsiz cihazlar üçün müraciətlər

**“Simsiz cihazlar üçün müraciətlər”** səhifəsində aşağıda qeyd olunan funksiyalar mövcuddur:

1.Müraciətlərin statusunu görmək üçün yuxarı hissədəki xanalara və ya **“Status”** sütununa nəzər yetirin.

2.Müraciətlərin hesabatını yükləmək üçün **“Excel faylını yüklə”** düyməsini sıxın.

3.Sütunlar üzrə ümumi axtarış etmək üçün **“Axtar”** xanasına əsas mətni daxil edin, çeşidləmək üçün cədvəldəki ilk sətirdən, filtr etmək üçün isə ikinci sətirdəki **“Seç”** xanasından istifadə edin.

4.**“Əməliyyatlar”** sütununda müraciət üzrə məlumatlara baxmaq üçün **“Ətraflı”**, müraciəti ləğv etmək üçün isə **“Ləğv et”** düyməsini sıxın.
**Qeyd:** Müraciətinizi həm **“Gözləmədədir”**, həm də **“İKTA tərəfindən təsdiqlənib”** statuslarında olarkən ləğv edə bilərsiniz. Nəzərə alın ki, ləğv olunan müraciəti bərpa etmək mümkün deyil.

5.Bütün təsdiq edilmiş müraciətləri görmək üçün yuxarı sağ küncdəki QR kodu skan edin.
**Qeyd:** QR kod yalnız müraciət təsdiq edildikdən sonra aktivləşir.

6.Etiketlənmə statusunu görmək üçün **“Etiketlənmə statusu”** sütununa, etiket nömrəsini görmək üçün isə **“Etiket məlumatı”** sütununa nəzər yetirin.




## Əlaqə

**WUF13 Radiospektrin idarə edilməsi portalı, radiospektr müraciəti və ya tezlik ayrılması ilə bağlı sualınız olarsa, spectrum@wuf13.az elektron poçt ünvanına müraciət edə bilərsiniz.**